# Azərbaycan nümunəvi bir ölkədir

## *Uğurlu xarici siyasət strategiyası ölkəmizin inkişafında, beynəlxalq nüfuzunun artmasında mühüm rol oynayır*

**Bu streteji kursun hesabına Azərbaycan dünya birliyində çox etibarlı tərəfdaşa çevrilmişdir. Beynəlxalq nüfuzunun kifayət qədər yüksək olduğunu vurğulayan dövlət başçısı cənab İlham Əliyev bildirib ki, Azərbaycan nümunəvi bir ölkədir. Onu Azərbaycana gələn hər bir qərəzsiz qonaq görür və etiraf edir: "İstənilən sahədə — şəhərimizin gözəlliyi, təhlükəsizlik, iqtisadi inkişaf, sosial ədalət, din-dövlət münasibətləri, dinlərarası dialoq, imkanlarımız və Avropa Oyunlarının keçirilməsi bizim potensialımızı bütün dünyaya göstərdi. Biz bu potensialı bilirdik. Biz bilirdik ki, nəyə qadirik".**

Müstəqillik illərində belə böyük uğurun əldə edilməsi Azərbaycan dövlətinin başçısı tərəfindən müəyyən olunan və həyata keçirilən nailiyyətdir. Azərbaycanda həyata keçirilən nəhəng beynəlxalq iqtisadi layihələr təkcə ölkəmizin maraqlarına xidmət etmir. Böyük infrastrukturu əhatə edən bu layihələr bir çox dövlətlərin iqtisadiyyatının dirçəldilməsinə və tərəqqisinə yardım edir. Bu qlobal layihələr sosial-iqtisadi inkişafı təmin etməklə bərabər, region dövlətlərinin də siyasi və iqtisadi əlaqələrinin güclənməsinə, tərəfdaşlığın daha da dərinləşməsinə səbəb olur.

Həm ölkə daxilində gedən proseslər, həm də Azərbaycanın dünya ölkələri ilə ikitərəfli və çoxformatlı əlaqələrinin daim genişlənməsi aparılan siyasətin səmərə - müsbət nəticəsidir. Belə ki, Azərbaycan ilə daha sıx münasibətlər qurmaq istəyən ölkələrin sayı ildən-ilə artır. Dövlətimizin xarici siyasətdəki əsas istiqaməti ikitərəfli əlaqələrdir. Dövlət başçısı cənab İlham Əliyevin çoxsaylı xarici səfərləri, aparılan danışıqlar ikitərəfli formatı daha da gücləndirir. Azərbaycan ikitərəfli əlaqələrdə tərəfdaş ölkələrin böyüklüyündən, kiçikliyindən asılı olmayaraq bərabərhüquqlu münasibətlər formalaşdıra bilmişdir. Dövlətimizin siyasəti, bütün təşəbbüsləri sülhə, əmin-amanlığa, beynəlxalq əməkdaşlığa istiqamətləndirib. Bütün sahələrdə əməkdaşlığın dərinləşməsinə yönəldilən bu xoşniyyətli siyasət Azərbaycanın beynəlxalq münasibətlər sistemində rolunu və etimadını əhəmiyyətli dərəcədə artırır. Azərbaycanın dünya birliyinə üzv ölkələrlə ildən-ilə daha da genişlənən münasibətləri bunu bir daha təsdiqləyir. Məsələn, Meksika Konqresində Azərbaycan ilə əməkdaşlığın inkişafına dair qəbul olunan qətnamədə Azərbaycan haqqında məlumat verilərək, 1992-ci ildə iki ölkə arasında diplomatik əlaqələrin qurulduğu, Meksikanın Azərbaycan ilə Latın Amerikası arasında körpü rolunu oynadığı, müstəqilliyini bərpa etdikdən sonra ölkəmizin iqtisadi inkişafa nail olduğu və bütün bunların ölkədə kommunikasiya, elm və texnologiya, sosial rifahın yüksəlişi, müasirləşmə və innovasiyalara səbəb olduğu qeyd edilib. Meksika Konqresinin Daimi Komissiyasının xarici əlaqələr, Müdafiə və İctimai Təhsil üzrə İkinci Komitəsində, "Federal İcra Hakimiyyətini Azərbaycan Respublikası ilə Meksika arasında münasibətlərin genişləndirilməsi üçün zəruri addımlar atmağa çağıran razılaşma mövqeyi üzrə birgə təklif" adlı qətnamədə Azərbaycanın Avropanın enerji təhlükəsizliyində rolu vurğulanaraq, Qafqazın ən strateji ölkələrindən biri olduğu diqqətə çatdırılıb. Ölkəmizin neftin hasilatı, istismarı və emalı sahəsində 150 ildən artıq təcrübəyə malik olduğu və Meksikanın bu təcrübədən bəhrələnə biləcəyi və Azərbaycandan əldə ediləcək biliklərin köməyi ilə hazırda Meksikada mövcud olan neft resurslarının istismar edilə biləcəyi məqamlar da sənəddə öz əksini tapıb.



Azərbaycanın kənd təsərrüfatının, turizmin, qeyri-neft sektorunun inkişafı, yoxsulluğun azaldılması sahələrindəki nailiyyətləri barədə məlumat verilərək ölkəmizin enerji, turizm, mədən sənayesi, telekommunikasiya, elm, texnologiya və digər sahələrə beynəlxalq sərmayələr yatırdığı bildirilib. Qətnamədə, həmçinin hər iki ölkənin zəngin mədəni irsə malik olduğu xüsusi vurğulanır. Sənəddə iki ölkə arasında iqtisadi, enerji, mədəniyyət, kənd təsərrüfatı, texnoloji inkişaf sahələrində əməkdaşlığın vacibliyi vurğulanıb. Təbii ki, bu əhəmiyyətli faktdır, Azərbaycana olan etimada yaxşı bir nümunədir.

Azərbaycanın beynəlxalq müstəvidə cəlbediciliyini artıran ən mühüm amillərdən biri də onun bölgədə sülh, sabitlik elementi rolunu oynamasından irəli gələn müsbət imicidir. Azərbaycan TŞ-nin bütün üzvləri, BMT-nin digər üzv dövlətləri, BMT katibliyi, QHT-lər və digər bütün nüfuzlu beynəlxalq təşkilatlarla sıx işbirliyi və əməkdaşlıq münasibətləri ən yüksək səviyyədə olan ölkədir. Bu uğurlu xarici siyasət strategiyası bundan sonra da dövlətimizin milli maraqlarının qlobal səviyyədə genişləndirilməsi və möhkəmləndirilməsi istiqamətində davam etdiriləcəkdir.

**Şükür ƏLİZADƏ,**
**"Respublika".**